# Azərbaycanda turizmin inkişafı yeni mərhələdə

## *Ölkəyə valyuta gətirən sahələrdən birinin də turizm olduğunu vurğulayan dövlət başçısı cənab İlham Əliyev bildirib ki, əsas məsələ turizm sənayesini yaratmaqdır*

**Dövlət başçısı cənab İlham Əliyevin siyasəti Azərbaycanın hərtərəfli inkişafına istiqamətlənib. Azərbaycanın streteji kursu, iqtisadi modelin müasirliyi və uğurları sübut edir ki, ölkəmizin böyük və gözəl gələcəyi vardır. Azərbaycanın davamlı yüksəlişi və gələcək illərdə də dayanıqlı inkişafa nail olmasının möhkəm təməllərə söykənməsi reallıqdır. Ölkəmizdə bütün digər sahələr kimi, turizmin inkişafı və bölgələrinin turizm imkanlarının artırılması mühüm əhəmiyyətə malikdir.**

Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı nitqində dövlət başçısı cənab İlham Əliyev bildirib ki, ölkəyə valyuta gətirən sahələrdən biri də turizmdir və biz burada da çox böyük nəticələr gözləyirik: "Xüsusilə nəzərə alsaq ki, son illər ərzində Azərbaycanın dünyada tanıdılması istiqamətində çox böyük işlər görülüb. Azərbaycanda dünyanın diqqətini cəlb edən beynəlxalq tədbirlər keçirilir. Misal üçün, bu il BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu keçirilmişdir. Dünya miqyaslı tədbirdir. Bir neçə il bundan əvvəl "Eurovision", keçən il Avropa Oyunları böyük marağa səbəb olmuşdur. Yəni, Azərbaycanı artıq tanıyırlar. Əlbəttə ki, ölkəmizin tanıdılmasında "Formula-1" yarışının xüsusi yeri var. Çünki bu yarışın auditoriyası 500 milyon insandır. "Formula-1" yarışı futbol üzrə dünya çempionatı və Yay Olimpiya Oyunlarının səviyyəsində olan tədbirdir, onlardan geri qalmır. Əgər dünya çümpionatı və Olimpiya Oyunları bir çox şəhərdə bir dəfə keçirilirsə, yaxud da ki, indi bəlkə də əlli ildə iki dəfə keçirilirsə, "Formula-1" yarışı Azərbaycanda ən azı bundan sonra dörd il keçiriləcəkdir. Bizim üstünlüyümüz ondan ibarətdir ki, bu, şəhər yarışıdır və Bakının gözəlliyi 500 milyon insan üçün artıq təqdim olunub. Bu, turizmin inkişafına çox böyük təkan verəcək və verməlidir".

Ölkəmizdə həyata keçirilən bu tədbirlərin müsbət nəticəsidir ki, 2015-ci ildə ölkəmizə 2,5 milyon turist gəlib. Əlbəttə, bu göstəricilərin əldə olunmasında Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq tədbirlər də mühüm rol oynamışdır. O cümlədən "Formula-1" Qran-pri yarışını izləmək üçün xarici ölkələrdən on minlərlə insan Azərbaycana gəldi. Sözsüz ki, bu tədbir də ölkəmizə turist axınının yaranmasında düzgün əhəmiyyət kəsb etdi. Xarici qonaqlar yarışı izləməklə yanaşı, həm də ölkəmizin zəngin təbiəti, mədəni irsi və ən nəhayət, azərbaycanlıların qonaqpərvərliyi ilə yaxından tanış oldular.

Məlumat üçün bildirək ki, Azərbaycanın coğrafi mövqeyi, gözəl təbiəti, flora və faunasının zənginliyi, dənizi, meşələri və dağları, mədəni-tarixi irsi ölkədə turizm sənayesinin yaranması üçün böyük perspektivlər açır. Həm də dünyada mövcud olan 11 iqlim qurşağından 9-u Azərbaycandadır. Eyni zamanda, "İpək Yolu"nun ölkənin ərazisindən keçməsi, Qərbdən-Şərqə, Şimaldan-Cənuba uzanan nəqliyyat marşrutlarında Azərbaycanın mərkəzi yer alması turizm potensialını xeyli dərəcədə artırır.

Dövlət başçısı cənab İlham Əliyevin ümumən Azərbaycanın sosial-iqtisadi inkişafı ilə bağlı imzaladığı elə bir sənəd yoxdur ki, orada milli turizm siyasətinin yüksəlişinə yol açan müddəalar öz əksini tapmasın. Cənab Prezident böyük turizm obyektlərinin, mehmanxanaların, digər



infrastruktur layihələrinin açılışlarında, turizm sərgilərində şəxsən iştirak edir, müvafiq tapşırıqlar verir, hər bir layihənin reallaşmasına dəstəyini əsirgəmir. Məhz son illərdə ölkəmizin regionlarına gələn həm yerli, həm də xarici turistlərin sayının artmasının əsas səbəblərindən biri infrastrukturun təkmilləşdirilməsi və yenilənməsidir. Cənab İlham Əliyevin diqqət və qayğısı ilə həyata keçirilən infrastruktur layihələrinin reallaşması nəticəsində bölgələrdə müasir kurort və yerləşdirmə obyektləri yaradılıb. Ölkəmizdə turizm infrastrukturunun müasir standartlara uyğunlaşdırılması, mövcud turizm xidmətinin yenilənməsi, yeni sahələrin yaradılması turizmin perspektiv inkişafına imkanlar yaradır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, turizm sektorunun inkişafı üç başlıca əsas istiqamətə söykənir: infrastrukturun yaradılması, xidmətin keyfiyyəti və təbliğat kampaniyası. Ölkəmizdə turizm sahəsinin qeyri-neft sektorunun prioritet istiqamətlərindən biri elan olunması və ötən illərdə turizm sahəsində həyata keçirilən layihələr və proqramlar bunun təsdiqidir. Məsələn, 2011-ci ilin dövlət başçısının təşəbbüsü ilə "Turizm ili" elan edilməsi, "Azərbaycan Respublikasında 2010-2014-cü illərdə turizmin inkişafına dair Dövlət Proqramı"nın icrası, Qusar rayonu ərazisində regionun ən iri qış turizm kompleksi–"Şahdağ" turizm mərkəzi dövlət dəstəyinin bu sahəyə diqqət və qayğısının bariz nümunəsidir. Həmçinin ölkəmizdə böyük potensiala malik müalicə turizmi inkişaf etdirilir. Nəzərə çatdıraq ki, Naftalan kurortu əvvəlki şöhrətini bərpa edir, Şabranda (Qalaaltı), Qəbələdə (Yenicə) müasir müalicə-turizm kompleksi istifadəyə verilib. Bu müxtəlifliyə görə də xarici turistlərin Azərbaycana axını müşahidə edilir.

Azərbaycanın turizm imkanları hər il Mədəniyyət və Turizm Nazirliyinin, tanınmış şirkətlərin iştirakı ilə müxtəlif ölkələrdə turizm sərgilərində nümayiş olunur. Eyni zamanda Bakıda ənənəvi Beynəlxalq Turizm və Səyahətlər sərgisi (AİTF) təşkil olunur.

Ölkəmiz on bir ildən çoxdur ki, Dünya Turizm Təşkilatında təmsil olunur. Azərbaycan 2013-cü ildən bu qurumun İcraiyyə Şurasının üzvüdür. Bu fakt Azərbaycanda turizmin inkişaf strategiyasının uğurla aparılmasının təzahürüdür. Ölkəmizdə işgüzar turizmin inkişaf strategiyasını həyata keçirmək məqsədilə Mədəniyyət və Turizm Nazirliyinin nəzdində Azərbaycan Konqreslər Bürosu yaradılıb. Nazirlik tərəfindən müvafiq sahənin inkişafı istiqamətində irimiqyaslı layihələr həyata keçirilir.

İnkişafın dayanıqlılığının iqtisadiyyatın şaxələndirilməsi istiqamətində gedəcəyinə diqqət çəkən cənab İlham Əliyev bildirib ki, əsas məsələ turizm sənayesini yaratmaqdır. Azərbaycanın gözəl iqlimi, yay aylarında Xəzər sahili, qış aylarında dağlar, xizək kurortları bunun üçün böyük imkanlara malikdir. Nəinki Bakıda, bütün bölgələrdə müasir infrastruktur, otellər, yollar var.

**Şükür ƏLİZADƏ,**
**"Respublika".**